

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 231 (21.132)

4 dekabr 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətі 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də paytaxtın Xətai rayonu ərazisindəki fəvvarələr və şəlalələr kompleksində həyata keçirilən tikinti işlərinin gedişi ilə tanış olub.

Dövlətimizin başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün istirahət guşələrinin yaradılması istiqamətində ardıcıl tədbirlər davam etdirilir. Salınan yeni parklar və yaşıllıq zolaqları, bağlarda və xiyabanlarda ən müasir tələblərə cavab verən infrastrukturun yaradılması, müasir iaşə obyektləri Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi məqsədinə xidmət edən əhəmiyyətli tədbirlərdəndir.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd edildi ki, 150 metr uzunluğunda olan kompleks ən müasir tələblər səviyyəsində qurulacaq. Fəvvarələr və şəlalələr kompleksinin altında müasir texniki infrastruktur və idarəetmə mərkəzi yerləşəcək. Müxtəlif rəngli 700-dən artıq işıq effekti fəvvarələrə xüsusi yaraşıq verəcək. Kompleksin ətraf ərazilərində abadlıq və yaşıllaşdırma işləri aparılacaq, qranit plitələr döşənəcək, ən müasir işıqlandırma sistemi qurulacaq.

Fəvvarələr və şəlalələr kompleksində işlərin gedişi ilə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

## “Naxçıvan bağları” tərəvəz məhsulları istixana kompleksi istifadəyə verilmişdir

“2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”na uyğun olaraq, muxtar respublikada yeni istixana komplekslərinin yaradılması və tərəvəz məhsulları istehsalının artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Bu sahədə görülən işlərin davamı olaraq, dekabrın 3-də Kəngərli rayonunun Böyükdüz kəndində “Naxçıvan bağları” tərəvəz





məhsulları istixana kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada sahibkarlığın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, yeni istehsal müəssisələri yaradılır. Son illər özəl bölmənin fəaliyyətinin dəstəklənməsi, xüsusilə sahibkarlara maliyyə dəstəyinin göstərilməsi istehsal müəssisələri şəbəkəsinin genişlənməsinə səbəb olmuşdur. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, ötən dövrdə Sahibkarlığa Kömək Fondu tərəfindən 1174 layihənin həyata keçirilməsi üçün 104 milyon manatdan artıq kredit verilmişdir. Göstərilən qayğı nəticəsində 2014-cü ildə muxtar respublikada 40 yeni istehsal və xidmət sahəsi yaradılmışdır. Yeni yaradılan istehsal müəssisələri içərisində istixana kompleksləri mühüm yer tutur. Hazırda muxtar respublikada ümumi sahəsi 100 min kvadratmetrdən artıq olan istixana kompleksləri fəaliyyət göstərir. Bu da payız-qış mövsümündə əhalinin keyfiyyətli tərəvəz məhsulları ilə təminatında mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxçıvan bağları” tərəvəz məhsulları istixana kompleksinin təşkilatçılarına təşəkkürünü bildirmiş, müəssisənin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: “Ölkəmizdə sahibkarlığın inkişafına hərtərəfli qayğı göstərilir. Bunun da nəticəsində Ümumi Daxili Məhsul istehsalında özəl bölmənin payı 86 faiz təşkil edir. Ölkə Prezidenti cənab İlham Əliyevin mütəmadi olaraq sahibkarlarla görüşməsi, bu sahə üzrə yeni vəzifələrin müəyyənləşdirilməsi özəl bölmənin inkişafına təkan vermişdir. Naxçıvan Muxtar Respublikasında da sahibkarlığın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata



keçirilir. Hər il sahibkarlarla görüşlər keçirilir, görülmüş işlər müzakirə olunur və qarşıda duran vəzifələr müəyyənləşdirilir”.

Ali Məclisin Sədri demişdir: “Muxtar respublikada tərəvəz məhsulları istehsalını həyata keçirən istixana komplekslərinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Ona görə də “Naxçıvan bağları” tərəvəz məhsulları istixana kompleksinin biznes planı təsdiq edildikdən sonra Sahibkarlığa Kömək Fondu tərəfindən kredit ayrılmış və müəssisə yaradılmışdır. 2014-cü ildə muxtar respublikada istifadəyə verilən istehsal müəssisələri içərisində ən çox investisiya məhz bu sahənin yaradılmasına sərf olunmuşdur. Çünki əhalinin il boyu keyfiyyətli tərəvəz məhsullarına olan tələbatının ödənilməsi vacib şərtdir. Bunun üçün də yeni istehsal müəssisələri yaradılmalı, sahibkarların fəaliyyəti dəstəklənməli, istehsal sahəsinin rentabelli işləməsi üçün daxili bazar qorunmalıdır”.

Ali Məclisin Sədri demişdir: “Hər bir ölkənin iqtisadi inkişafında, əhalinin məşğulluğunun təmin olunmasında və ərzaq məhsullarına olan tələbatın ödənilməsində sahibkarlıq fəaliyyətinin mühüm yeri vardır. Ona görə də bu gün ölkəmizdə, eləcə də muxtar respublikada sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə hərtərəfli qayğı göstərilir. Bundan sonra da muxtar respublikada sahibkarlar qayğı ilə əhatə olunacaq, onlara hərtərəfli dövlət dəstəyi göstəriləcəkdir”.

Ali Məclisin Sədri müəssisənin rentabelli işləyəcəyinə əminliyini bildirmiş, bir daha kollektivi təbrik etmiş, istixana kompleksində yaradılan şəraitlə tanış olmuşdur.

Sahibkar Elçin Bağırov istixana kompleksi haqqında məlumat vermişdir. Bildirmişdir ki, müəssisə yaradılarkən Sahibkarlığa Kömək Fondundan 2 milyon manat kredit götürülmüş, 2 milyon 150 min manat şəxsi investisiyadan istifadə edilmişdir. Kompleksin yaradılmasında əsas məqsəd əhalini ekoloji cəhətdən sağlam tərəvəz məhsulları ilə təmin etməkdən ibarətdir. 46 min kvadratmetr sahəsi olan yeni istixana kompleksində tərəvəz bitkilərinin əkini, şitil yetişdirilməsi, turşu istehsalı, dibçək güllərin yetişdirilməsi və satışı sahəsi yaradılmış, hazır məhsulların saxlanılması üçün soyuducu anbar tikilmişdir. Kompleksdə Türkiyə, İspaniya, İsrail və İtaliya istehsalı olan ən müasir avadanlıqlar quraşdırılmış, 2,7 kilometr uzunluğunda drenaj şəbəkəsi çəkilmiş, 3 traktor və məhsulların satış məntəqələrinə çatdırılması üçün soyuducu kameralı nəqliyyat vasitələri alınmışdır.

Kompleks tam avtomatlaşdırılmış iqlim-nəzarət, istilik-mühafizə, havalandırma, gübrələndirmə və suvarma sistemləri ilə təchiz edilmişdir. Burada damcı və çiləmə suvarma üsulundan istifadə edilir. Müasir texnologiyaların tətbiqi bazara rəqabətədavamlı məhsul çıxarılmasına imkan verəcəkdir. Şitillərin tozlandırılması xüsusi işçi arılar vasitəsilə həyata keçirilir ki, bu da məhsuldarlığın təbii yolla artırılmasında və ekoloji təmiz məhsulların istehsalında mühüm amildir. İstehsal prosesində yalnız üzvi gübrədən istifadə olunur. Müəssisədə yaradılan soyuducu anbar isə tələbatdan artıq istehsal olunan məhsulların keyfiyyətinin itirilmədən saxlanılmasına imkan verəcəkdir.

Ardı 2-ci səhifədə

İlkin mərhələdə kompleksdə 21 min xiyar, 105 min pomidor və 18 min çiyələk şitili əkilmişdir. Müəssisənin illik istehsal gücü 1300 tondur. Məhsullar müxtəlif çəkili və gigiyenik qaydalara uyğun taralarda qablaşdırıldıqdan sonra satış məntəqələrinə göndərilir. Gələcəkdə kompleksin sahəsinin genişləndirilməsi və digər tərəvəz məhsullarının yetişdirilməsi də nəzərdə tutulur. Kompleksdə təhlükəsizlik kameraları quraşdırılmış, iş otaqları və yeməkxana istifadəyə verilmişdir. İstixana kompleksində 50 nəfər işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin bundan sonra da davam etdirilməsinin vacibliyini bildirmiş, bazarın yerli tərəvəz məhsulları ilə təmin olunması, ekoloji təmiz məhsulların istehsalına diqqətin artırılması və bu sahə ilə məşğul olan sahibkarların fəaliyyətinin dəstəklənməsi barədə aid qurumlara tapşırıqlar vermişdir.

Sahibkar Elçin Bağırov muxtar respublikada sahibkarlığın inkişafı üçün hərtərəfli şərait yaradıldığını bildirmiş və göstərilən qayğıya görə minnətdarlıq etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



# Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında

## *Ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti*

**Ulu öndər Heydər ƏLİYEV:** ***Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə fəxr etməyə haqqı var. Şərqdə, o cümlədən Azərbaycanda təşəkkül tapmış intibah dünya mədəniyyəti tarixinin ən parlaq səhifələrindən biridir. Bu intibah Azərbaycan xalqının həyatın müxtəlif sahələrində qazandığı böyük uğurlarının məntiqi nəticəsi idi.***

*(Əvvəli qəzetin ötən sayında)*

2000-ci ildə 1300 illik yubileyini təntənə ilə qeyd etdiyimiz “Kitabi-Dədə Qorqud” kimi möhtəşəm bir abidəyə malik olmaq da onu göstərir ki, bu torpaqda hələ bizim eramıza qədərki dövrdə böyük bir mədəniyyət mövcud olmuşdur.

Xalqımızın əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır. Dastanlarımız kimi möhtəşəm sənət abidələri, dünya sivilizasiya tarixində silinməz izlər qoymuş Qətran Təbrizi, Nizami Gəncəvi, Əfzələddin Xaqani, Xətib Təbrizi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi korifeylərin yaradıcılığı ümumbəşəri ideyaların tərənnümünə, haqqın, ədalətin, humanist ideallların bərqərar olmasına xidmət etmişdir. Səfiəddin Urməvinin, Əcəmi Naxçıvaninin, Sultan Məhəmməd Təbrizinin dünya mədəniyyəti xəzinəsinə verdikləri incilər sənətsevərləri indi də heyran qoyur.

Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə fəxr etməyə haqqı var. Nəsirəddin Tusinin, Əbülhəsən Bəhmənyarın, Şihabəddin Sührəvərdinin və digər mütəfəkkirlərin adları dünya elm aləminə yaxşı tanışdır. Şərqdə, o cümlədən Azərbaycanda təşəkkül tapmış intibah dünya mədəniyyəti tarixinin ən parlaq səhifələrindən biridir. Bu intibah Azərbaycan xalqının həyatın müxtəlif sahələrində qazandığı böyük uğurlarının məntiqi nəticəsi idi.

Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın Vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir.

Tarixi proseslərin gedişi ona gətirib çıxartdı ki, 1813-1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycanı, onun tarixi torpaqlarını parçaladı, xalqımızı iki yerə böldü. Bu gün tam qətiyyətlə demək olar ki, bütün dünyaya səpələnmiş azərbaycanlılar müstəqil Azərbaycan Respublikasını öz Vətəni sayır, onu milli dövlətçiliyin, milli ruhun, milli dəyərlərin, milli mənəviyyatın və mədəniyyətin məbədi kimi yüksək qiymətləndirirlər. Bu, XX əsrdə təşəkkül tapmış Azərbaycançılıq ideyalarının böyük vüsət almasının məntiqi nəticəsidir.

XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır. Bu qaynaqlar həm ayrı-ayrı görkəmli şəxsiyyətlərin, Abbasqulu ağa Bakıxanov və Mirzə Kazım bəy kimi nadir insanların çox uğurlu yaradıcı fəaliyyətində öz əksini tapmış, həm də birbaşa milli maarifçilik ideyalarının gerçəkləşməsi ilə bağlı olmuşdur. Azərbaycanda məhz bu dövrdə demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaranaraq milli şüurun formalaşmasına güclü təkan verdi.

1872-ci ildə çar hökumətinin sərəncamı ilə intizam sistemi ləğv olunduqdan sonra neft sənayesinin inkişafı üçün yollar açıldı. Bundan sonra Bakıya güclü xarici kapital axını başlandı. 1883-cü ildə Zaqafqaziya dəmir yolu çəkildikdən sonra Rusiya və digər Avropa ölkələri ilə əmtəə mübadiləsi gücləndi. Bakı yerli və xarici sərmayə hesabına sürətlə kapitalistləşdirildi. 1896-1906-cı illərdə Bakı-Batumi neft kəmərinin çəkilməsi xüsusilə əlamətdar bir hadisə oldu. Bundan sonra Bakı nefti dəniz və dəmir yolu ilə Rusiya və dünya bazarlarına çıxarıldı. Bakının bir tərəfdən Şimali Qafqaz və Rusiya ilə, o biri tərəfdən Tiflis və Qara dəniz sahilləri ilə kommunikasiya yaratması onun dünya əmtə tədavülünə cəlb olunmasını sürətləndirdi. Məhz Bakı nefti sayəsində Rusiya neft hasilatına görə dünyada birinci yerə çıxdı. XIX əsrin sonu, XX əsrin əvvəlləri dünyada yeni münasibətlərin bərqərar olduğu bir dövr kimi Azərbaycan xalqının həyatının bütün sahələrində də öz təsirini göstərmişdir. Bu dövrün ictimai prosesləri iri sənaye şəhərinə çevrilmiş Bakını bütün Qafqazın iqtisadi mərkəzi etmişdir.

İqtisadi inkişafla əlaqədar olaraq bu dövrdə təhsil, elm, incəsənət və ədəbiyyat sahələrində böyük canlanma başlandı. Bakı, Gəncə, Naxçıvan, Şuşa, Şəki, Salyan və sair şəhərlərdə yenitipli şəhər və qəza məktəbləri açıldı. Qori Müəllimlər Seminariyasının məzunlarından olan Cəlil Məmmədquluzadə, Süleyman Sani Axundov, Üzeyir bəy Hacıbəyov, Həbib bəy Mahmudbəyov, Rəşid bəy Əfəndiyev, Firidun bəy Köçərli kimi görkəmli maarifçilər təhsildə gedən islahatlara güclü təkan verirdilər. Artıq yeni üsullu təhsil metodunun mütərəqqiliyini başa düşənlər “Üsuli-cədid” məktəblərini açmağa çalışırdılar. Şamaxıda Seyid Əzim Şirvani, Şuşada Mir Möhsün Nəvvab, Lənkəranda Mirzə İsmayıl Qasir, İrəvanda Mirzə Kazım Əsgərzadə ənənəvi təlim və tədrisdən əl çəkərək yeni üsulla dərs verirdilər. Bu məktəblərdə ənənəvi fənlərlə yanaşı, tarix, rus dili, coğrafiya və təbiət dərsləri də tədris edilirdi. 80-ci illərdən başlayaraq “Rus-tatar məktəbi” adı ilə tanınan dördillik ibtidai məktəblər açıldı. Yenitipli məktəblərin şəbəkəsi genişlənirdi. 1896-cı ildə Bakıda Hacı Zeynalabdin Tağıyevin himayəsi ilə yaradılan qızlar məktəbi Azərbaycan qadınlarının maariflənməsində müstəsna rol oynamışdır.

Maarifçilik hərəkatının genişlənməsi Azərbaycandan xarici ölkələrə ali təhsil almağa gedənlərin sayının get-gedə artmasına gətirib çıxardı. Xaricdə ali təhsil aldıqdan sonra Vətənə qayıdan ziyalılar Azərbaycanda maariflənmə meyillərini dəstəkləyən qüvvələri öz ətrafında birləşdirdilər, milli mətbuat və milli teatrın yaranması üçün zəmin yaratdılar.

Bakının inkişafı, əhalinin artması, ziyalı qüvvələrin yetişməsi, informasiya məkanının genişlənməsi milli mətbuatın yaranması ehtiyacını doğururdu. Bunu ilk dərk edən görkəmli maarifçi Həsən bəy Zərdabi bu istiqamətdə məqsədyönlü iş aparırdı. 1875-ci il iyulun 22-də “Əkinçi” qəzetinin ilk nömrəsi çıxdı və bununla, Azərbaycan mətbuatının bünövrəsi qoyuldu. Cəlil Məmmədquluzadənin təşəbbüsü və başçılığı ilə nəşrə başlayan “Molla Nəsrəddin” jurnalı nəinki Azərbaycanın, hətta bütün Şərqin mətbuat tarixində özünəməxsus məktəbin əsasını qoydu. Bu, Azərbaycanda milli mətbuatın formalaşıb öz təbii inkişaf axarına düşməsindən xəbər verirdi.

Həmin dövrdə mədəniyyətin ən böyük nailiyyətlərindən biri də milli teatrın yaranmasıdır. Məlumdur ki, Mirzə Fətəli Axundovun komediyaları hələ əsrin 50-ci illərində Peterburq və Tiflisdə tamaşaya qoyulmuşdur. 1873-cü ildə Həsən bəy Zərdabi Nəcəf bəy Vəzirovla birlikdə milli Azərbaycan teatrının əsasını qoydu. Bakıda azərbaycanlı tələbələrdən ibarət aktyor truppasının köməyi ilə Mirzə Fətəli Axundovun komediyaları səhnəyə qoyuldu. İlk tamaşa “Lənkəran xanının vəziri”, sonrakı isə “Hacı Qara” olmuşdur. Bakı tamaşasından sonra 70-ci illərin ikinci yarısında Quba və Şəkidə Azərbaycan dilində teatr tamaşaları təşkil edildi. Diqqətəlayiq cəhətdir ki, teatr tamaşalarının verilməsində Qori Müəllimlər Seminariyasının məzunları fəal rol oynamışlar. 1879-cu ildə Şəkidə Rəşid bəy Əfəndiyev, 1882-ci ildə Şuşada Yusif bəy Məlikhaqnəzərov, 1883-cü ildə Naxçıvanda Məhəmməd Tağı Sidqi teatr həvəskarlarının köməyi ilə Axundovun komediyalarından tamaşalar vermişlər.

XIX əsrin sonları, XX əsrin əvvəlləri Azərbaycan teatrının canlanma dövrü oldu. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun “Leyli və Məcnun” operasının 1908-ci ildə ilk tamaşası ilə Azərbaycanda və bütün Şərqdə opera sənətinin təməli qoyuldu. Müslüm Maqomayevin 1916-cı ildə yaratdığı “Şah İsmayıl” operası da Azərbaycan səhnəsində həmişəlik yer tutdu. Üzeyir Hacıbəyov həm bəstəkar, həm də dramaturq kimi 1909-1913-cü illərdə yazdığı musiqili komediyalarla Azərbaycan teatrına operetta janrını gətirdi.

O dövrdə Uilyam Şekspirin, Fridrix Şillerin, Nikolay Qoqolun, Lev Tolstoyun əsərləri azərbaycanca tamaşaya qoyulurdu ki, bu da Azərbaycan dramaturgiyasının inkişafına təsir göstərirdi. Təməli Mirzə Fətəli Axundovla qoyulan ədəbi məktəb Azərbaycan dramaturqlarının yaradıcılığında əsrin ən qüvvətli və qabaqcıl ədəbi hərəkatına çevrildi, ədəbiyyatda demokratik ideyalar getdikcə daha geniş yayılmağa başladı. Bu hərəkat XX əsr ədəbiyyat, mədəniyyət və siyasətinin nəhəng simalarının yetişməsi üçün zəmin yaratdı.

Yeni dövrün ədəbiyyatının formalaşmasında Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Mirzə Ələkbər Sabirin, Süleyman Sani Axundovun, Üzeyir bəy Hacıbəyovun, Nəriman Nərimanovun, Haşım bəy Vəzirovun, Cəlil Məmmədquluzadənin, Abbas Səhhətin, Məhəmməd Hadinin, Abdulla Şaiqin, Əlibəy Hüseynzadənin, Əhməd Ağaoğlunun, Əhməd Cavadın, Hüseyn Cavidin və başqalarının əvəzsiz xidmətləri var idi.

XX əsrə qədəm qoyan Azərbaycan artıq bir çox sahələrdə, o cümlədən mədəniyyət, maarif və milli mətbuat sahələrində olduqca mühüm nailiyyətlər əldə etmişdi. Ən başlıcası isə Azərbaycanda müasir burjuaziya təbəqəsi formalaşıb ölkənin ictimai həyatında mühüm rol oynamağa başlamışdı. Bu dövrdə Azərbaycan ziyalılarının müxtəlif sahələrdə göstərdiyi fəaliyyət milli dirçəliş, milli oyanış, milli ruhun aşılanması proseslərinə xidmət edirdi. Beləliklə, XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxartdı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı. Bu dövrü XX əsr Azərbaycan tarixinin **birinci mərhələsi** adlandırmaq olar.

Azərbaycan üçün **ikinci mərhələ** çar Rusiyası dağılandan sonra ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi dövrdür.

Həmin dövrdə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi. Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər – Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı. 1920-ci ilin yanvarında Azərbaycan dövlətinin müstəqilliyi de-fakto tanındı.

Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Bu cümhuriyyətin yaradılmasında müstəsna xidmətləri olan Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Nəsib bəy Usubbəyov, Mehdi bəy Hacınski, Məmməd Yusif Cəfərov, Xudadat bəy Rəfibəyov, Əkbər ağa Şeyxülislamov, Teymur bəy Makinski, Səməd bəy Mehmandarov, Əli ağa Şıxlinski, Sultan Məcid Qənizadə, Xəlil bəy Xasməmmədov, Əhməd bəy Pepinov, Şəfi bəy Rüstəmbəyov kimi görkəmli ictimai xadimlərin xatirəsini qədirbilən Azərbaycan xalqı bu gün də böyük ehtiram hissi ilə yad edir.

Əsrin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi olaraq Üzeyir Hacıbəyovun və Əhməd Cavadın yaratdıqları Dövlət Himnini, Xalq Cümhuriyyətinin üçrəngli bayrağını və gerbini bərpa elədi. Bu dövlətçilik atributları bu gün də hər bir Azərbaycan vətəndaşı üçün olduqca əzizdir.

*(Ardı qəzetin növbəti sayında)*

# Ulu öndər Heydər Əliyev və Naxçıvan

***Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə “Heydər Əliyev lektoriyası”nın növbəti məşğələsi keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin məktəbin həyətindəki abidəsinin önünə tər güllər düzüblər, dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla yad ediblər. Məktəbin akt zalında “Heydər Əliyev və Naxçıvan” mövzusunda keçirilən lektoriyanı giriş sözü ilə məktəbin direktoru Namiq Məmmədov açıb.***



Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli “Heydər Əliyev və Naxçıvan” mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, hər bir dövləti qüdrətli edən, adını şöhrətləndirən, yüksəklərə qaldıran, nüfuzunu artıran amillərdən ən aparıcısı ona rəhbərlik edən siyasi rəhbərdir. Yalnız ölkə başçısının ölkəni idarəetmə bacarığı, təcrübəsi, eyni zamanda şəxsi nüfuzu ölkənin tanınmasına, beynəlxalq aləmdə dayanıqlı yer tutmasına böyük təsir göstərir. XX əsrin 60-cı illərindən başlayaraq müəyyən fasilələrlə Azərbaycan dövlətinə rəhbərlik etmiş ümummilli lider Heydər Əliyev belə siyasi rəhbərlərin fövqündə dayanan görkəmli dövlət xadimidir. Dahi şəxsiyyət Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xalqımızın qədim və zəngin tarixinin dərindən və hərtərəfli öyrənilməsi, araşdırılması ilə bağlı mühüm tədbirlər həyata keçirib. Ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən biri də ata-baba ocağı olan Naxçıvanın tarixinin öyrənilməsi olub. Naxçıvanın çoxəsrlik tarixini yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev bu qədim bölgənin tarixinin hərtərəfli və dərindən öyrənilməsini tövsiyə edərək deyirdi: ***“Azərbaycanın bir hissəsi olan Naxçıvanın tarixi ilə əlaqədar gərək çox fundamental əsərlər yaradaq, bu əsərlərlə də təkcə iddiaçılara cavab verməklə yox, bütün dünyaya Azərbaycanın qədim, zəngin tarixini, mədəniyyətini göstərək”.***

Qeyd olunub ki, əbədiyaşar lider Heydər Əliyev siyasi fəaliyyətinin istər birinci, istərsə də ikinci mərhələsində Naxçıvanın tarixinin öyrənilməsi istiqamətində bir sıra mühüm addımlar atıb, konkret tədbirlər həyata keçirib. 1974-cü ildə Naxçıvan MSSR-in 50 illik yubileyinin qeyd edilməsi muxtar respublika üçün böyük bir tarixi bayram idi. Yubiley tədbirlərində ümummilli lider Heydər Əliyev şəxsən iştirak edib, tarixi nitq söyləyib.

Məruzəçi bildirib ki, “Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında” ulu öndər Heydər Əliyevin 4 fevral 1999-cu il tarixli Fərmanı qədim diyarın tarixinin öyrənilməsi və təbliği istiqamətində böyük tarixi və siyasi əhəmiyyətli hadisə idi. Ümummilli lider Heydər Əliyevin sonrakı dövrlərdə Naxçıvanın zəngin keçmişə malik tarixinin öyrənilməsi yönündə atdığı addımlar, eləcə də sonrakı dövrlərdə bu siyasi irsin uğurla davam etdirilməsi milli dövlətçilik tariximizin yeni səhifələrinin işıqlandırılmasına imkan verib, eyni zamanda bu qədim diyarın Azərbaycanın ən qədim mədəniyyət ocaqlarından biri olduğunu sübuta yetirib.

Vurğulanıb ki, dahi şəxsiyyətin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi muxtar respublikamızda nəinki tarix elminin, eləcə də bütün sahələrin inkişaf etdirilməsinə zəmin yaradıb. Bu il yaradılmasının 90 illiyini qeyd etdiyimiz Naxçıvan Muxtar Respublikası məhz bu möhkəm təməllər əsasında özünün intibah dövrünü yaşayır.

Sonra məruzə ətrafında Heydər Əliyev adına tam orta məktəbin müəllimlərindən Rəfiqə Əhmədovanın və Şəfiqə Əhmədovanın çıxışları olub.

Tədbirin sonunda ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətini əks etdirən slayd nümayiş etdirilib.



***Naxçıvan Dövlət Texniki Kollecində də “Ulu öndər Heydər Əliyev və Naxçıvan” mövzusunda “Heydər Əliyev lektoriyası”nın növbəti məşğələsi keçirilib. Məşğələni giriş sözü ilə kollecin direktor əvəzi Asəf Ruşanov açaraq ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən bəhs edib.***

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli “Heydər Əliyev və Naxçıvan” mövzusunda çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin adı müstəqil Azərbaycanın xilaskarı kimi tariximizə qızıl hərflərlə yazılıb. Bu böyük şəxsiyyət ali dövlət vəzifələrində olmadığı dövrlərdə belə, Azərbaycançılıq ideyası uğrunda xidmətlərini davam etdirib, həyatını təhlükə qarşısında qoyaraq 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını ittiham edib. Bu kəskin bəyanatdan sonra ulu öndər Heydər Əliyevin Moskvada yaşaması mümkün olmayıb və həmin il iyulun 20-də Bakıya gəlib. Lakin burada – vaxtilə qurub-yaratdığı şəhərdə qalmaq, ağır fəlakət anında xalqı ilə bir yerdə olmaq imkanı verilmədiyindən iki gün sonra müdrik rəhbər doğma Naxçıvana qayıdıb.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb fəaliyyət göstərməsi Naxçıvanı, eləcə də bütün Azərbaycanı bəlalardan qurtarıb. Məhz həmin dövrdə dahi şəxsiyyətin uzaqgörən siyasi fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin milli istiqlal rəmzi olan üçrəngli dövlət bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərarlar qəbul olunub. Hansı ki bu tarixi qərarlar sonra Azərbaycanın müstəqil dövlət kimi formalaşmasında əsas amillərdən olub. Eyni zamanda həmin dövrdə Naxçıvanda müstəqil Azərbaycan dövlətinin gələcək ictimai-siyasi həyatında böyük rol oynayacaq Yeni Azərbaycan Partiyası yaradılıb.

Azərbaycanın dövlətçilik ənənələrinin əsasının Naxçıvanda qoyulduğunu qeyd edən məruzəçi vurğulayıb ki, 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən Azərbaycan rəhbərliyinə qayıdışı ölkəmizin ən yeni tarixində misilsiz bir mərhələnin başlanğıcını qoyub. Bu qayıdış müstəqilliyimizin qorunmasına, torpaqlarımızın işğalına son verilməsinə, ölkədə əmin-amanlığın, siyasi sabitliyin bərqərar olunmasına zəmin yaradıb. Tarix üçün çox qısa zamanda Azərbaycan öz iqtisadi, siyasi, mədəni gücü ilə dünya dövlətləri sırasında layiqli yerini tutub. Məhz 1990-1993-cü illərdə ümummilli lider Heydər Əliyevin Naxçıvandakı siyasi fəaliyyəti ölkəmizi əsl tərəqqi yoluna çıxarıb, muxtar respublikamızı isə bu tərəqqinin önündə gedən regionlardan birinə çevirib.

Sonda “Heydər Əliyev və Naxçıvan” adlı film nümayiş etdirilib.

**✍ Səbuhi HƏSƏNOV**

# Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş rəsm sərgisi

***Dekabrın 3-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş rəsm sərgisi təşkil olunub.***

Sərgidə Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Məhəmmədəli Ələkbərovun və Sabir Məmmədovun rəsm əsərləri nümayiş etdirilir.

Açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva bildirdi ki, bu gün muxtar respublikada rəssamlığın və təsviri sənətin inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Yeni nəsil rəssamların yetişməsi, rəssamlıq sənətinin tədrisi üçün hərtərəfli şərait yaradılır, rəssamların yaradıcılıq imkanları artırılır, onlara diqqət və qayğı göstərilir. Son dörd il ərzində Bəhruz Kəngərli adına Sərgi Salonunda keçirilən 80-dək sərgidə 4 minə yaxın əsər sərgilənib. Bu gün iki fərqli üslub sahibləri Məhəmmədəli Ələkbərovun və Sabir Məmmədovun fərdi sərgilərinin nümayiş etdirilməsi rəssamlara göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri qeyd etdi ki, Məhəmmədəli Ələkbərovun abstrakt, modern üslubda çəkdiyi əsərlərdə maraqlı süjet, özünəməxsus kompozisiyalar var. O, əsərlərində onu bir rəssam kimi daha çox narahat edən və bu gün ətrafda cərəyan edən hadisələri əks etdirib. Bunlardan “Rəssamın emalatxanası”, “Rəssamın mələkləri”, “İlham pərisi emalatxanada” əsərlərini qeyd etmək olar. Sabir Məmmədovun əsərlərində isə daha çox milli duyğular qabarıq şəkildə özünü büruzə verir, rəssam öz doğma yurdunu rəsm əsərlərində canlandırır. “Əlincə qalası”, “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi” kimi əsərləri buna nümunə göstərmək olar. Rəssamın yaradıcılığında sulu, yağlı boya, dəmir üzərində döymə xüsusi yer tutur.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il yanvarın 14-də imzaladığı “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” Sərəncama əsasən, respublikamızda və ölkəmizdən kənarda təntənəli yubiley tədbirləri keçirilir. Ayrıca 2014-cü il Naxçıvan Muxtar Respublikasında “Muxtariyyət ili” elan olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il yanvarın 17-də imzaladığı Sərəncam ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə dair Tədbirlər Planı”na əsasən, muxtar respublikada silsilə tədbirlər keçirilir.

Rəhman Məmmədov qeyd etdi ki, ötən il Rəssamlar Birliyi üçün yeni bina inşa olunub, müasir sərgi salonu və emalatxana istifadəyə verilib. Yaradılan şərait rəssamların yaradıcılıq imkanlarının daha da genişlənməsinə səbəb olub. Bundan başqa, Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda müvafiq ixtisaslar açılıb, məktəbəqədər tərbiyə müəssisələrində rəsm dərnəkləri yaradılıb. Məhz bunun nəticəsidir ki, son illər naxçıvanlı rəssamlar böyük uğurlara imza atıblar. Dünyanın bir çox ölkəsində rəssamlarımızın sərgiləri açılıb, onlar beynəlxalq festival və müsabiqələrdə iştirak ediblər.

Bildirilib ki, hər bir rəssamın yaradıcılığı, müxtəlif janrlarda çəkdiyi əsərləri onun yaradıcılıq dünyasının nümunəsidir. Bu gün sərgilənən rəsm əsərlərində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının tarixi, abidələri, təbiəti, mədəniyyəti, eləcə də görkəmli şəxsiyyətlərinin portreti dolğun əks olunub. Ona görə də əminliklə demək olar ki, rəssamlarımızın bu əsərləri zəngin mədəni irsimizin tərkib hissəsi olmaqla yanaşı, həm də muxtar respublikanın bütün sahələrində uğurlarının təbliğinə xidmət edir.

Sonra sərgiyə baxış oldu.

**✍ Rauf ƏLİYEV**

# Beynəlxalq Əlillər Günü qeyd olunub

*3 dekabr – Beynəlxalq Əlillər Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində və rayon mərkəzlərində sağlamlıq imkanları məhdud şəxslərin iştirakı ilə tədbirlər keçirilib.*

Naxçıvan Əlillərin Bərpa Mərkəzində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək vurğulayıb ki, muxtar respublikamızda məhdud fiziki imkanlı şəxslər dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Bütün sahələrdə müşahidə olunan dinamik inkişaf bu kateqoriyadan olan şəxslərin də sosial müdafiəsinin günbəgün gücləndirilməsinə imkanlar açıb. Onlara müxtəlif növ sosial xidmətlər göstərilir, onların tibbi və sosial reabilitasiyaları təşkil edilir, müvafiq kateqoriyadan olan məhdud fiziki imkanlı şəxslərin mənzil-məişət şəraiti yaxşılaşdırılır, müharibə əlilləri minik avtomobilləri ilə təmin olunur, tənha yaşayan, qayğıya ehtiyacı olan məhdud fiziki imkanlılara evdə sosial-məişət xidməti göstərilir, habelə bu kateqoriyadan olan şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Sonra çıxış edənlər bildiriblər ki, muxtar respublikamızda məhdud fiziki imkanlı şəxslərə göstərilən sosial xidmətlərin səviyyəsi yüksəlib, onların asudə vaxtlarının mənalı təşkili istiqamətində həyata keçirilən tədbirlər intensiv xarakter alıb.

Babək rayonunda keçirilən tədbirdə sağlamlıq imkanları məhdud ifaçılardan ibarət musiqi qrupu tədbir iştirakçıları qarşısında konsert proqramı ilə çıxış edib.

Tədbirlərdə, ümumilikdə, sağlamlıq imkanları məhdud 1000 şəxsə sovqat təqdim olunub.

Tədbir iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da azsaylı xalqların nümayəndələrinin mədəni irsinin qorunmasına və dini azadlığına çox hörmətlə yanaşılır.***

# “Multikulturalizm və dini məsələlər” mövzusunda konfrans

Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin təşkilatçılığı ilə keçirilən “Multikulturalizm və dini məsələlər” mövzusundakı konfransda bu barədə danışıldı.

Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov bildirdi ki, sivilizasiyaların qovuşduğu məkanda yerləşən Azərbaycanın zəngin mədəni, mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması bu gün beynəlxalq aləmdə etiraf edilir. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonvensiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanına çevirib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov “Multikulturalizm Azərbaycanın dövlət siyasəti, cəmiyyətin həyat tərzidir”, Naxçıvan şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Natəvan Qədimova “Multikulturalizm siyasəti beynəlxalq təcrübədə” mövzularında çıxışlar ediblər.



Qeyd olunub ki, multikulturalizm müxtəlif mədəniyyətlərin paralel şəkildə yaşamasını qəbul edən tolerant cəmiyyətin başlıca xüsusiyyətlərindən biridir. Tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, xalqları birləşdirən mədəniyyətin formalaşmasına səbəb olur ki, bu da insanların gələcək mədəni birliyi məqsədilə bir mədəniyyətin digər mədəniyyətə inteqrasiya prosesi ilə əlaqədardır.

Konfransda mövzu ətrafında geniş diskussiyalar aparıldı.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikanın yol-nəqliyyat sistemində qarşıya qoyulan vəzifələr yerinə yetirilir

***Muxtar respublikada müasir və etibarlı yol-nəqliyyat infrastrukturu yaradılmış, bu sahənin davamlı inkişafı təmin olunmuşdur. Son illər şəhər mərkəzləri ilə yanaşı, ən ucqar kəndlərdə belə, müasir standartlar səviyyəsində yollar tikilərək istifadəyə verilmişdir.***

Yol-nəqliyyat şəbəkəsinin inkişafı istiqamətində müəyyənləşdirilən tədbirlər 2014-cü ilin noyabr ayında da davam etdirilmişdir. Noyabrın 12-13-də Naxçıvan Avtobus Parkında muxtar respublikada sərnişindaşımalarını yerinə yetirən sahibkarların və sürücülərin iştirakı ilə seminar-müşavirə keçirilmiş, "Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı ilə sərnişindaşımalarını yerinə yetirən sürücülərin intizam qaydaları" müzakirə edilmiş, sahibkarlarla birlikdə payız-qış mövsümünə hazırlığın vəziyyəti təhlil olunmuşdur.

Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsindən ayrı düşməsi avtomobil nəqliyyatı sahəsində əlaqələrin kəsilməsinə səbəb olmuşdur. Ona görə də İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan-Bakı və Bakı-Naxçıvan marşrutu fəaliyyət göstərir. Hazırda bu marşrut üzrə Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə məxsus 2 "Mersedes Benz-Traveqo", habelə "M.Trans" şirkətinə və İran İslam Respublikasının "Didari Seyri Giti" şirkətinə məxsus avtobuslar fəaliyyət göstərir. Noyabr ayı ərzində avtobusların davamlı fəaliyyəti diqqət mərkəzində saxlanılmış, müvafiq təmir işləri görülmüşdür.Ötən ay Naxçıvandan Bakıya 93 reys baş tutmuş, 3 min 934 sərnişin daşınmışdır. Əks istiqamətdə daşınan sərnişinlərin sayı isə 2 min 445 nəfər olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 fevral tarixli Fərmanı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"ın icrası ötən ay ərzində diqqət mərkəzində saxlanılmışdır. Hazırda şəhərdaxili nəqliyyata beynəlxalq standartlara cavab verən müasir avtobusların cəlb olunması, Naxçıvan şəhərində nəqliyyatın sıx olduğu yerlərdə piyada keçidlərinin yaradılması və ictimai nəqliyyat üçün yeni dayanacaqların quraşdırılması işləri davam etdirilir.

Xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə sərnişindaşıma ilə məşğul olan nəqliyyat vasitələrinə dövlət nəzarəti gücləndirilir. 2014-cü ilin noyabr ayı ərzində 16 fiziki və hüquqi şəxs lisenziyaya cəlb edilmiş, 39 avtonəqliyyat vasitəsinə lisenziya kartları verilmişdir. Bu müddət ərzində avtonəqliyyat vasitələrinə vergi ödəyərək fərqlənmə nişanı alınması işinə diqqət artırılmışdır. Lisenziya almış avtomaşınların texniki müayinədən keçirilməsindən əldə olunmuş 4 min 400 manat vəsait nazirliyin xüsusi hesabına, lisenziya rüsumu olaraq toplanmış 2 min 400 manat vəsait isə büdcəyə köçürülmüşdür. Noyabr ayı ərzində nazirlik tərəfindən sərnişindaşıma ilə məşğul olan avtobus və taksilərin təmizliyinə, sürücülərin geyim formasına və hərəkət qrafikinə nəzarət edilmiş, xüsusən axşam saatlarında şəhərdaxili marşrutların intensiv hərəkəti təmin olunmuşdur. Nəqliyyat vasitələrinin, eləcə də avtovağzal binalarının istilik sistemləri yoxlamadan keçirilmiş, sərnişinlərə keyfiyyətli nəqliyyat xidmətinin göstərilməsi üçün bütün lazımi tədbirlər görülmüşdür.

Nəqliyyat vasitələrinə nəzarət məqsədilə nazirliyin Reyd komissiyası Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsi ilə birlikdə müxtəlif günlərdə 13 dəfə reyd keçirmiş, qanunsuz sahibkarlıqla məşğul olan sürücülər müəyyən edilərək onların barəsində müvafiq tədbirlər görülmüşdür. "Naxçıvan Muxtar Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə ağırçəkili və iriqabaritli nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası"nın icrasına nəzarət gücləndirilmişdir. Bu dövr ərzində yükdaşıma fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin avtonəqliyyat vasitələrinə baxış keçirilmiş, yükdaşımalarda təhlükəsizlik tədbirləri haqqında həmin sürücülərlə söhbətlər aparılmış və 160 nəqliyyat vasitəsinə "icazə kartı" verilmişdir.

Görülən tədbirlər nəticəsində muxtar respublikada sərnişindaşıma xidmətinin səviyyəsi daha da yüksəlmişdir. Belə ki, fəaliyyətdə olan 123 marşrut xətti üzrə hərəkət edən 296 avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmiş, 485 taksidən 482-si fəaliyyətini davam etdirmişdir. Qış mövsümü ilə əlaqədar olaraq sərhəd kəndlərinə və ucqar dağ kəndlərində sərnişindaşıma işini həyata keçirən avtobusların hərəkətinə nəzarət artırılmışdır.

*Yol-nəqliyyat infrastrukturunun inkişafına, nəqliyyat vasitələrinin təhlükəsiz və rahat hərəkətinə hesablanmış tədbirlər bundan sonra davam etdiriləcək, əhaliyə göstərilən nəqliyyat xidmətinin yüksəldilməsi üçün bütün imkanlardan istifadə olunacaqdır.*

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

***Əhalinin, eləcə də istehsal və xidmət sahələrinin normal və təhlükəsiz qaz təchizatının təmin olunması, yaşayış məntəqələrinin qazlaşdırılması, qaz təchizatı şəbəkəsinin əsaslı təmiri istiqamətində işlər noyabr ayında da davam etdirilmiş, bu sahədə xidmətin yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər görülmüşdür. Ötən ay ərzində muxtar respublikanın şəhər və rayonlarında təbii qaz istehlakçıları tərəfindən daxil olan müraciətlərə əsasən qazlaşdırılan yeni mənzillərin, fərdi evlərin və müxtəliftəyinatlı obyektlərin sayı 195 olmuşdur ki, onlardan 191-i əhali, 4-ü isə qeyri-əhali olmuşdur. Naxçıvan Muxtar Respublikasında fərdi və ümumi yaşayış evlərinin qazlaşdırılması, korroziyaya uğramış boruların dəyişdirilməsi, yol-tikinti işlərinin aparılması, su-kanalizasiya xətlərinin çəkilməsi və abadlaşdırma işləri ilə əlaqədar olaraq 20 min 478 paqonometr qaz kəmərlərinin yeri dəyişdirilmiş və ya yenilənmişdir.***

## Muxtar respublikanın fasiləsiz mavi yanacaqla təminatı diqqət mərkəzindədir

Payız-qış mövsümündə artan tələbata uyğun olaraq, təbii qaz istehlakçılarının fasiləsiz, təhlükəsiz yanacaqla təchiz olunması vacib şərtdir. Birliyin kollektivi bu istiqamətdə işlərini günün tələbləri səviyyəsində qurmuş, korroziyaya uğrayan qaz kəmərlərinin yeniləri ilə dəyişdirilməsi və qaz sızmalarının aradan qaldırılması təşkil edilmişdir. Bu dövr ərzində aşkarlanmış 1375 sızma aradan qaldırılmışdır. İstismara yararsız 3 min 967 ədəd qaz sayğacı yenisi ilə əvəz edilmiş, nasazlıq və qəzalarla bağlı daxil olan müraciətlərə vaxtında baxılaraq qazın nəqli bərpa olunmuşdur.

"Naxçıvanqaz" İstehsalat Birliyinin magistral qaz kəmərləri üzərində quraşdırılan və istismarda olan avtomat qazpaylayıcı stansiyalarda təbii qazın məişət və kommunal sənaye obyektlərinə, şəhər, rayon qaz şəbəkələrinə təmizlənmiş, odorizə olunmuş, kubmetrlərlə həcm miqdarı ölçülmüş halda verilməsi məqsədilə bütün zəruri işlər görülmüşdür. İstehlakçılara bağlanmış üzrə texnoloji rejim gündüz və gecə rejimləri olmaqla müəyyənləşdirilmiş, sutka ərzində rejim və sərflərin qeydiyyatının aparılması nəzarətə götürülmüşdür. Qrafik üzrə müəyyən olunan vaxtlarda avtomat qazpaylayıcı stansiyalarda avadanlıqlara texniki xidmət göstərilmişdir.

Qış mövsümündə təbii qaza olan tələbat daha da artır, qaz nəqli sistemi daha artıq yüklənir və gərgin işləyir. Buna görə də sistemin bu dövrdə normal istismarı işini təmin etmək məqsədilə bir sıra işlər görülmüşdür. Belə ki, ərazilər üzrə bütün sistem boyu qaz kəmərlərinə qazanalizatorlarla xətti nəzarət edilmiş, texniki baxış zamanı ortaya çıxan nasazlıq və qaz sızmaları aşkarlanıb aradan qaldırılmışdır. Müxtəlif mexanizmlərin və qaynaq avadanlıqlarının texniki vəziyyəti yoxlanılmış, çətin şəraitdə etibarlı işləməsi üçün tam yararlı vəziyyətə gətirilmişdir. Bundan başqa, istismarda olan yeraltı yüksək və ortatəzyiqli magistral qaz kəmərlərinin üzərində quraşdırılmış katod elektrokimyəvi mühafizə qurğularına vaxtlı-vaxtında nəzarət olunmuş, xətdəki potensial fərq ölçülərək nəzarətdə saxlanmışdır.

Təhlükəsizlik tədbirlərinə əməl edilməsi və israfçılıq hallarına yol verilməməsi məqsədilə istehlakçılarla maarifləndirici söhbətlər noyabr ayı ərzində də davam etdirilmiş, bu istiqamətdə mütəmadi reydlər keçirilmiş, təbii qazdan səmərəli istifadə qaydaları izah olunmuşdur. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin iş planına uyğun olaraq, "Naxçıvanqaz" İstehsalat Birliyində "Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə edilməsinin təşkili" mövzusunda mülki müdafiə tədbirləri, birliyin mülki müdafiə planının reallığının yoxlanılması təşkil edilmiş, ortaya çıxan çatışmazlıqlar aradan qaldırılmışdır.

Birliyin aid strukturlarının ixtisaslı kadrlarla təminatı da diqqət mərkəzindədir. Ötən ay şəhər, rayon Qaz İstismarı idarələrində çalışan işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində "qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər" peşəsi üzrə kurslar təşkil edilmişdir.

Qaz təsərrüfatının normal fəaliyyətini təmin etmək məqsədilə qarşıdakı aylarda da bütün zəruri tədbirlər həyata keçiriləcəkdir. Muxtar respublikada qaz təchizatının səmərəliliyini artırmaq və qaz itkisini minimuma endirmək məqsədilə dekabr ayında görüləcək işlərin tədbirlər planı hazırlanmış və bu istiqamətdə işlərin icrasına başlanmışdır.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2014-cü ilin noyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1095 | 65,7 | 66,0 | 100,5 |
| 2. | Culfa rayonu | 1182 | 70,9 | 71,2 | 100,4 |
| 3. | Şahbuz rayonu | 485 | 29,1 | 29,2 | 100,3 |
| 4. | Kəngərli rayonu | 620 | 37,2 | 37,3 | 100,3 |
| 5. | Naxçıvan şəhəri | 3835 | 230,1 | 230,1 | 100,0 |
| 6. | Şərur rayonu | 1913 | 114,8 | 114,8 | 100,0 |
| 7. | Babək rayonu | 1876 | 112,6 | 112,6 | 100,0 |
| 8. | Sədərək rayonu | 320 | 19,2 | 19,2 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 26426 | 1585,5 | 1553,0 | 98,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **37752** | **2265,1** | **2233,4** | **98,6** |

**Qeyd:** Noyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 37 milyon 752 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 265 min 100 manat olmuş, cəmi 2 milyon 233 min 400 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 98,6 faizini təşkil edir.

## Sosial şəbəkələrdə fərqlənənlər mükafatlandırılıblar

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində sosial şəbəkələrdə fəallıq göstərən, Naxçıvanın tarixini, sosial-iqtisadi inkişafını işıqlandıran istifadəçilərin fəaliyyətinin qiymətləndirilməsi və onlarla görüşlərin keçirilməsi artıq ənənə halını alıb. Ötən gün bu tədbirlərin davamı kimi, iki gənc noyabr ayının yekunlarına görə mükafatlandırılıb.

Gənc müəllim Anar Tağıyev tədbirdəki çıxışında dövlətimizin gənclərə, onların fəaliyyətinə yüksək qiymət verdiyinə görə minnətdarlığını bildirib və muxtar respublikamız haqda məlumatların sosial şəbəkələrdə real, dəqiq və vicdanlı təbliği istiqamətində fəaliyyətlərini gücləndirəcəklərini qeyd edib.

## Boksçularımızdan uğurlu nəticə

*Naxçıvan boksçuları cari ildə qazandıqları uğurlarla bütün diqqətləri öz üzərlərinə cəlb etməyi bacarıblar. Artıq dəri əlcək sahiblərimiz keçirilən yarışların, turnirlərin bir nömrəli favoriti halına gəliblər.*

Balakən rayonunda başa çatan yeniyetmələrin respublika oyunlarında boksçularımız daha bir uğura imza atıblar. 21-28 noyabr tarixlərində Şimal zonasında təşkil olunan birincilikdə ölkənin 45 komandası və 200-dən çox boksçusu rinqdə mübarizə aparıb. Bu yarışa 10 idmançı ilə yollanan komandamız muxtar respublikaya 5 medalla qayıdıb. Belə ki, 62 kiloqram çəki dərəcəsində mübarizə aparan Cahid Qurbanov bütün rəqiblərini məğlub edərək respublika oyunlarının qalibi adını qazanıb. Digər 4 medalın əyarı isə bürünc olub. İlkin Qurbanov (34 kq), Kənan Şəfiyev (36 kq), Muxtar Fərzəliyev (38 kq) və Elçin Məmmədov (56 kq) yalnız finala gedən yolda rinqi məğlub tərk ediblər və üçüncülüklə kifayətləniblər.

Qeyd edək ki, qaliblərə diplom və hədiyyələr təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Seyidov Mirkənan Cəlal oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səyyar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 1011